www.mi-news.az
№03 (6462) 10 yanvar 2023-cü il
Mingəçevir işıqları



# Minimum aylıq əmək haqqı artırıldı

**Prezident İlham Əliyev "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

"Mingəçevir işıqları" xəbər verir ki, minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilib.

Nazirlər Kabineti 10 gün müddətində əmək pensiyasının minimum məbləğinin 280 manata çatdırılması, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Eyni zamanda, bu müddətdə Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Qeyd edək ki, minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat olub.

Baş redaktordan

# Şəhərə ilk qar yağdı. Qışa hazırıqmı?

Yanvarın 8-dən etibarən ölkənin hər yerində, o cümlədən Mingəçevirdə hava şəraiti kəskin şəkildə dəyişib. Nəticədə temperatur 10-15 dərəcə aşağı düşüb və qar yağıb.

Təbii ki, qarın yağması arzuolunandır. Çünki havada olan mikrobların məhv olması, torpağın cana gəlməsi üçün qar əvəzsizdir. Lakin onun həyatımıza çətinliklər yaratması da qəbul ediləndir. Axı qarlı-şaxtalı havalarda əksəriyyətimiz daha çox əziyyətə qatlaşmalı oluruq. Bu da bir çox xidmət sahələrinin arzu olunan səviyyədə çalışmamasından doğur. Artıq ilk siqnallar gəlib. Sürüşkən yolların hamısı vaxtında təmizlənmir və nəqliyyat vasitələrinin hərəkəti üçün təhlükə yaranır.

Ən ciddi problem əksər mənzillərin qızdırılmamasıdır. Şəhərdə mərkəzləşdirilmiş istilik sisteminin bərpa olunacağı və yenidən qurulacağı barədə hökumət qurumlarından vədlər eşidirik. Lakin bu, hələ də söz olaraq qalır. Enerji və qaza tələbat artdığından əhali adi günlərdəkindən bir neçə dəfə çox ödəniş edir və səbirsizliklə baharın gəlişini gözləyir.

# İHB yanında Şuranın ilk iclası keçirildi

2023-cü il yanvar ayının 6-da Mingəçevir şəhər İcra Hakimiyyəti başçısı yanında Şuranın növbəti iclası keçirilib. İcra Hakimiyyətinin başçısı İlham İsmayılov yeni ilin ilk Şura iclasında gündəlikdə duran məsələlər haqqında məlumat verib. Bildirib ki, gündəlikdə iki məsələ durur:

1.Mingəçevir şəhər İcra Hakimiyyəti başçısı yanında Şuranın və İcra Hakimiyyəti başçısı aparatının 2023-cü il üçün iş planının təsdiqi haqqında.

2.Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı təsdiq edilmiş "Tədbirlər Planı"nın icrası haqqında.

Gündəlikdə duran birinci məsələ haqqında məlumatla çıxış edən icra başçısı qeyd edib ki, 2022-ci ildə Şuranın 23 iclası keçirilib, bu iclaslarda 39 məsələ müzakirə olunub, onların icrası təmin olunub: "Yeni başlayan təqvim ilində də Şuranın iş planı tərtib olunaraq müzakirəyə çıxarılıb və o şura üzvlərinin ixtiyarna verilib. Hesab edirəm ki, İcra Hakimiyyəti yanında Şuranın və İcra Hakimiyyəti başçısı aparatının 2023-cü il üçün perspektiv iş planı müvafiq təlimatlara uyğun hazırlanmış və onun icrası həyata keçirilmək üçün təsdiqə verilmişdir".

Şura üzvləri İcra Hakimiyyəti başçısının məlumatını dinlədikdən sonra İHB yanında Şuranın və İHB başçısı aparatının 2023-cü il üçün perspektiv iş planını təsdiq edib.

2-ci məsələ ilə bağlı İcra Hakimiy--yəti başçısının müavini, aparatın ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Hikmət Kərimov məlumt verib. Müzakirələrdə Azərbaycan İES-in veteran əməkdaşı Adil İsmayılov, "Mingəçevir" qəzetinin baş redaktoru Mirsədi Daşdəmirov, "Mingəçevir işıqları" qəzetinin baş redaktoru Fərman Nəbiyev təkliflər veriblər.

Hər iki məsələ haqqında müvafiq qərar qəbul edilib.

# Qazilər müharibənin acı günlərini təkrar yaşadılar

## *"Əsgər şəhidlik zirvəsinə ucalır. Qazi isə müharibənin travmasını, mərmidən aldığı yarasını, ağrı-acıları ömür boyu canında və yaddaşında daşıyır. Bu elə bir hisdir ki, ondan xilas olmaq çətindir"*

*Mingəçevir şəhərindən İkinci Vətən müharibəsində 1030 nəfər iştirak edib. Onlardan 51-i şəhid olub, 120 nəfər yüngül yaralanıb, 35 nəfər isə müxtəlif dərəcəli əlillik statusu alıb.*

*Odun-alovun içindən keçən və düşmən qəlpəsini canında gəzdirən qazilərin bir qismini Mingəçevir Media Mərkəzinə dəvət edib, həyat hekayələrini danışmağı xahiş etdik. Dəyirmi masa ətrafında düşüncələrini paylaşan bu igidlər müharibənin acı günlərini təkrar yaşadılar. Onlar şəhidlik zirvəsinə ucalan yoldaşlarını anaraq, qələbə sevinci yaşamamalarına təəssüflənib, üzücü xatirələrini dilə gətirdilər.*

### Yaşamaq üçün döyüşmək lazımdır



*Haşımov Nicat Mahir oğlu Mingəçevirdə doğulub, 29 yaşı var. Turizm Kollecini bitirib. Avarçəkmə üzrə milli yığma komandasının üzvü olub. İncəsənətlə məşğuldur-musiqiçidir. Bəstəkar, şair və aranjimançıdır. Hərbi xidmət zamanı Nicat artileriyada həm tuşlayıcı, həm piyadaatıcı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.*

Tovuz döyüşləri (12 iyul, 2020-red.) baş verən ərəfələrdə könüllü yazılan qruplardaydıq. Məqam çatdı, 2020-ci ildə səfərbərlik başladı, sentyabrın 21-də Vətənin müdafiəsinə yollandıq. Teymur Əhmədovun rəhbərlik etdiyi tağım həmin vaxt Talışkənd-Suqovuşan istiqamətində artıq cəbhə xəttini yarmışdı. Biz dəstək kimi onlardan sonrakı qrupa qoşulduq və sentyabrın 27-də döyüşlərdə iştirak etdik. İtki də verdik, Allah şəhidlərimizə rəhmət eləsin. Amma şükür ki, məqsədimizə nail olduq.

Ən çətin döyüşümüz sentyabrın 27-28-də cəbhə xəttinin yarılması zamanı oldu. İlk günlər daha çətin idi. Təcrübəsiz idik, döyüşlərə tam adaptasiya olmamışdıq. İçimizdə qorxu, həyəcan vardı. Ancaq bir müddət sonra ölüm də, mərmi səsləri də adiləşir. İlk üç-dörd gün yata da bilmirsən. Sonra imkan düşəndə adam elə rahat yatır. Müharibənin ilk günlərində daha çox itki verdik. Çünki ərazini tanımırdıq. Düşmən isə 30 il idi ki, həmin ərazini əlinin içi kimi tanıyır və orda möhkəm müdafiə sistemi qurmuşdu. Onlar o yerləri işğal edəndə heç mən doğulmamışdım. Biz o yerlərə necə hakim ola bilərdik, necə hücum etməliydik, necə müdafiə oluna bilərdik? Bunlar çox sual doğururdu. Üstəlik artileriya atışı o qədər çox olurdu ki, canımızı salamat saxlamaq üçün nəyin arxasında gizlənə və zərbədən qoruna biləcəyimizi bilmirdik. Gözləyirdik və məqam düşən kimi hücuma keçirdik.

Əvvəldən tanıdığımız və döyüş zamanı tanış olduğumuz dostlarımız vardı. Onlardan bəziləri şəhid oldu, amma bizim onların ailələri ilə əlaqələrimiz var. Doğum, anım günlərində, ailə məclislərində iştirak edirik.

Döyüşdə hər qrupun funksiyası fərqli olur. Hücumda, müdafiədə olan, təminat-təchizat qrupları var. Gərgin döyüşlər zamanı bir müddət kəsinti baş verir. Düşmən hücum edir, yolları vurur, texnika işləyə bilmir və təminat-təchizat ləngiyir. Bir yerdən sonra ixtisas o qədər də fərq etmir. Ola bilər ki, rabitəçidi, amma döyüşdə rabitə əlaqəsi yoxdursa, sağ qalmaq və hücum etmək lazımdır. Yaşamaq üçün döyüşmək lazımdır.

Ehtiyac olanda hücuma və ya müdafiəyə keçirdik. İmkan düşən kimi şəhid olanların və yaralıların daşınmasına köməklik göstərirdik. Goranboy rayonunun Baxçakürd kənd sakini Quliyev Aqşin Mehdi oğlu həmin döyüşdə şəhid oldu.

Talışkəndin yaxınlığında düşmənin komanda müşahidə məntəqəsi yüksəklikdə yerləşirdi. Ordan Mingəçevirdəki İstilik və Su Elektrik Stansiyalarının boruları aydın görünürdü.

Talışkəndə çatmamış, Təkərpostu ilə komanda müşahidə məntəqəsinin arasındaki ərazidə üç günə yaxın mühasirədə qaldıq. Bizim qrupda 17-18 nəfər vardı. Digər qrupdakı uşaqlarla cəmi 40-50 nəfərə yaxın idik. Mühasirəni yarıb, hücuma davam etdik. Təminatımız gec gəldi. Amma başqa çarəmiz də yox idi. Məqsədə çatmaq üçün sağ qalmaq lazım idi. Talışkəndi və Suqovuşanı azad etdik və dekabrın 31-də evə buraxıldım.

# Ailəmizin, nəslimizin, xalqımızın qeyrətini qorumağa gedirdik



*Mingəçevirli İbrahimli Namiq Elşən oğlunun 37 yaşı var. Azərbaycan Pedaqoji Universitetinin fikizi tərbiyə və gənclərin çağırışa qədərki hazırlığı fakültəsi bitirib. Turizm Kollecində fiziki tərbiyə müəllimi işləyir. 12 saylı orta məktəbin çağırışaqədər hərbi hazırlıq rəhbəri və fiziki tərbiyə müəllimidir. Əvvəllər güləşlə məşğul olub. Sonrakı 15 ilini futbola həsr edib. Hər yerdə Mingəçeviri layiqli təmsil etməklə yanaşı, idman sahəsində də uğur qazanmağa çalışır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xid-mətdə fərqlənməyə görə" (3-cü dərəcəli), "Şuşanın azad olunmasına görə", "Füzu-linin azad olunmasına görə", "Xocavən-din azad olunmasına görə" və "Vətən mü-haribəsi iştirakçısı" medalları ilə təltif olunub.*

Atam Elşən İbrahimli I qrup Əfqanıstan veteranıdır və Əfqanıstan Veteranlar İttifaqı Mingəçevir şəhər təşkilatının sədridir. Bilirsiz ki, onlar iki döyüş yolu keçiblər. Birinci Qarabağ müharibəsi zamanı şəhidlərin dəfn mərasimlərində mən də valideynimlə birlikdə iştirak edirdim. Məndə vətənə olan sevgi, vətənpərvərlik o vaxtlardan yaranıb. Nə qədər hərbidən uzaqlaşdırsalar da yenə də bir tərəfim hərbiyə bağlı olub.

Tovuz hadisələrindən sonra biz Tovuzda kənd camaatı ilə birlikdə səngər qazırdıq. Hiss edirdik ki, müharibə ab-havası var. İkinci Vətən müharibəsi başlanan kimi sentyabrın 28-də səhər Hərbi Komissarlığa gedib, müharibəyə getmək istədiyimi bildirdim. İmtina etdilər. Mən qardaş dediyim dostum Babayev Allahverdi Ələt oğlunu öz əlimlə torpağa qoymuşam, onun qisasını almaq üçün mütləq müharibəyə getməliydim. Allahverdinin şəhid olması mənə çox pis təsir etmişdi.

Sentyabrın 28-də Müdafiə Nazirliyinin səhifəsinə müraciət etdim. Dərhal müsbət cavab aldım. Ayın 29-da cəbhəyə yollananda Hərbi Komissarlığın qarşısında şagirdlərimi görəndə fəxr etdim ki, 14 ildə çəkdiyim əziyyət hədər getməyib. Onlardan ikisi-Emin və Əli şəhid oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Qazilərdən Mehralı Məcidli kəşfiyyat, Sahib Şəmiyev ikinci taborda, Tahir Abışovla mən bir taborda döyüşdük. Hamımız eyni hərbi hissədə idik. Biz bilirdik ki, ora ya şəhid, ya da qazi olmağa gedirdik. İki yoldan birini seçməliydik. Düşünürdük ki, 30 il erməni tapdağında olan torpaqlarımızı biz azad etməsək, bu problem bizdən sonrakı nəslə qalacaq. Ailəmizin, nəslimizin, xalqımızın qeyrətini qorumağa gedirdik.

Digər gənclərin çoxu ilə Laçın obalarında tanış olduq. Burda bir gecənin içində bölgələrindən beş minə yaxın çağırışçı gəlmişdi.

Sentyabrın 29-da Laçın obalarına getdik. İstiqamətimiz Füzuli, Horadis, Cəbrayıl, Xocavənd, Hadrut və Şuşaya idi. Dekabrın 3-də ilk döyüşə Füzulidə başladıq. Cəbrayılda üç eşelon (Cəbhədə girintili-çıxıntılı vəziyyətdə mövqe tutan və bu qaydada yeriyən qoşun hissəsi-red.) vardı və onlar çətinliklə alınan eşelonlar idi. Onları keçdik. Hadruta giriş müxtəlif istiqamətlərdən oldu və döyüşlər ağır keçdi. Orda düşmənin böyük sığınacaqları – tunelləri vardı. Döyüşdən sonra da erməni silahlıları tək-tək sığınacaqlardan çıxırdılar. Biz Hadruta girəndə sakinlər qapılarını bağlayıb çıxmışdılar. Bizim hərbi hissə bu döyüşlərdə ən çox itki verdiyi üçün onda dörd dəfə cəmləşmə oldu. Yaralılara dəstək üçün bir təxliyə manqası yaradıldı. Yaşıma görə məni o manqaya komandir qoydular. Bizim 11 şəhidimiz Hadrutda yüksəklikdə qalmışdı, biz onları təxliyə etdik.

Sonra istiqamətimiz Topxana və Şuşa tərəfə oldu. Hərbi hissəmizin öhdəsinə düşən tapşırıq Şuşakəndi azad etmək idi. Şuşakəndin iki dənə kamera postu var idi. Onlar yuxarıdan Şuşaya nəzarət edirdilər. O postlar alınandan sonra dekabrın 6-da Şuşaya hücum başladı.

Müharibəylə bağlı ən ağrılı hadisələri unutmağa çalışıram. Hər birimizdə döyüş travması qalıb. Göz önündən getməyəcək çox epizodlar var.

Noyabrın 1-də Beyləqandakı hərbi hissənin yeməkxanasında idik. Düşmən hərbi hissəni vurmaq istəyib. Amma koordinatları düz olmadığından mərmi yandakı evə düşdü və evdə olan iki bacı şəhid oldu.

Şuşakəndə döyüş qurtarmışdı. Noyabrın 11-də bütün taborlar ferma deyilən bir yerə gəldilər. Hərbi hissəmiz orda yerləşirdi. Hamı öz silahlarını təmizləyirdi. Orda fiziki cəhətdən zəif olan bir əsgər nəzərimi çəkdi. O, Füzulidən Şuşaya qədər yol keçmişdi. Tanrının onu qorumasına sevinmişdim.

Noyabrın 8-i günü Şuşanın azad olunması elan olundu. Səhərisi gün ermənilər demək olar ki, bütün mərmilərini dayanmadan istifadə etdilər.

Gecə saat 2-də bizə üç komanda gəldi. Birinci o oldu ki, erməni diversiya qrupu biz tərəfə keçib. Tam hazırlıqlı olun. İkinci komanda o idi ki, səhər saat 5-də cəbhənin bütün istiqamətlərindən Xankəndi və Xocalı istiqamətinə hücuma keçiləcək.

Səhər saat 4-də kimi qaravulda durdum. Sonra yoldaşlardan birinə dedim ki, məni əvəz elə, bir saat da mən yatım. Yuxuda gördüm ki, cənab prezidentimiz İlham Əliyev çıxış edir. Sən demə, bu yuxu deyilmiş. Uşaqlardan biri telefonuna gələn zəngi mikrofona qoyub, hamı prezidentimizin çıxışına qulaq asır. Qələbə elan olunan gün elə bil biz hamımız yenidən anadan olmuşduq. O an sevincimizin həddi-hüdudu yox idi. Biz hələ inanmırdıq. Hərbi hissə komandirindən rabitə ilə təbrik mesajını alandan sonra tam əmin olduq. Gecə saat 12-də atəşkəс elan olundu, amma yenə atəş səsləri eşidilirdi. Bəzi yerdə tək-tək güllə səsləri eşidilirdi. Müharibə bitən gün 20 min erməni ordusu geri çəkilərək, Xankəndinə yerləşmişdi.

Noyabrın 10-a qədər Allah bizə çox gözəl hava bəxş etmişdi. Elə bil o da haqqı dəstəkləyirdi. Son iki-üç gün bir az havalar soyudu.

Təsəvvür edin, müharibə davam edir, itki verilir, arxadan başqaları gəlirdi. Ali baş Komandanın elə ağıllı bir siyasəti vardı ki, məqamında müharibəni saxladılar. Erməni tərəfi də çox qorxurdu. Ondan sonra daha ağır döyüşlər Laçında, Kəlbəcərdə, Xocavənd, Xocalı, Ağdərədə davam edəcəkdi.

**(Ardı səh. 4-də)**

# Qazilər müharibənin acı günlərini təkrar yaşadılar

(Əvvəli səh. 3-də)

Müharibəni yaşamayan adam müharibə haqqında danışa bilməz. Onun içində olmayan, düşmənlə üz-üzə gəlib, o qorxu hissini yaşamayan, mühasirəyə düşməyən, qucağında şəhid ölməyən, yaralının qolunu, ayağını-başını əlində aparmayan adam müharibə nədi bilməz və o anıları yaşamamısansa müharibə haqqında danışmağa haqqın yoxdur. Çox adam o döyüşlərə getməyə qorxurdu. Çünki o qorxu düşündüyümüz qorxu hissindən çox fərqlənir.

30 il əvvəl Qarabağ savaşında məğlub olmuşduq. İndi ən hündür yüksəklik olan Şuşa bizdədir. Bu, ən böyük zəfərdir. Inşallah, digər ərazilərimiz də siyasi yolla hissə-hissə qaytarılacaq.

## Qələbə sevincini yaşamaq gözəl hisdir



*Niftəliyev Əyyub Habil oğlu Mingəçevirdə doğulub, orta təhsillidi. Üçüncü qrup müharibə əlilidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.*

Tovuz döyüşləri gedən zaman Mingəçevir şəhər Hərbi Komissarlığına yaxınlaşdım. Hələ ehtiyac olmadığını və lazım olarsa məni də aparacaqlarını dedilər. Səfərbərlik elan olunanda, sentyabrın 21-də "N" saylı hərbi hissəyə göndərildim. Ayın 27-də Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etdim. Oktyabrın 1-də Təkəri postunu keçəndə mühasirəyə düşdük. Üç tərəfimiz düşmən idi. Dəstək gələ bilmirdi. Özümüz tez çıxdıq mühasirədən. Mühasirədən çıxan zaman 13 nəfərin yanına 82 mm-lik minaatanın mərmisi düşdü, orda yaralandım. Şəhidimiz çox oldu. Mingəçevir şəhərindən şəhid olanların bir qismi mənimlə eyni döyüşdə olanlar idi.

Qabırğalarım qırılmışdı, ağ ciyərimdə hələ də qəlpə var. Naftalan şəhərində ilk tibbi yardım aldım. Sonra Yevlax xəstəxanasına göndərildim. 15 gündən sonra isə Mingəçevir şəhər Mərkəzi Xəstəxanasına gətirildim. Mən xəstəxanadan çıxanda cənab prezidentimiz sərəncam verdi ki, ağır yaralılar tərxis olunsun. Artıq döyüş dayandırılmışdı. Müharibə haqqında çox danışa bilmirəm. Psixoloji təsir edir mənə. Amma qələbə sevincini yaşamaq gözəl hissdir.

## "... O hərbi hissəni alanların heç biri hərbçi deyildi"

*Həsənov Ceyhun Damət oğlu mingəçevirlidir. Gürcüstanın Rustavi şəhərində ali təhsil alıb, hüquq fakültəsini bitirib. Ağdaş qaz təchizat idarəsində işləyir. Ailəlidir, iki övladı var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.*



2020-ci ilin oktyabrında könüllü olaraq müharibəyə getdim. Füzuli, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etdim. Oktyabrın 8-də Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində ağır döyüşlərimiz oldu. Orda yeraltı keçidlər vardı. Biz postları ala-ala gedirdik. Düşmən bir hiylə işlətdi və bizi mühasirəyə saldı. Düşmən aldığımız postları ağır çaplı silahlarla atəşə tuturdu. Biz isə postları ala-ala gedirdik. Orda 28 şəhid verdik. İmkan vermədilər ki, şəhidlərimizi götürək. Biz 19 gündən sonra şəhidlərimizi neytral zonadan çıxartdıq. Üstlərindəki silahları ermənilər götürmüşdülər. Həsənov Əzim Fikrət oğlu, Elyasov Cəfər Yavər oğlu şəhid oldu. Onlar xidməti əsgər idilər. Əzimi özüm təxliyə etdim. Mənimçün ən ağır gün o idi. Çiyin-çiyinə döyüşdüyün, bir şəhərdə böyüdüyün və yaxından tanıdığın dostunu itirəndə adam həqiqətən də pis olur. O anda hər şey ağlından keçir.

Xocavənddə ermənilərin bir hərbi hissəsi vardı. Orda yol boyu öz qəhrəmanlarının şəkillərini vurmuşdular. Heç bir kömək gəlmədən həmin hərbi hissəni aldıq. O zaman bu çox qürurverici idi. Polkovnik Tehran Mənsimov öz çıxışlarının birində qeyd etmişdi ki, o hərbi hissəni alanların heç biri hərbçi deyildi, onlar səfərbərlik zamanı gələn müxtəlif peşə sahibləridir.